## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2025.1.73**

**VƏLİ BAXŞƏLİYEV**

# BÜLÖVQAYA YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ QAZINTILAR

*Bülövqaya yaşayış yerində 2024-cü ildə aparılan arxeoloji qazıntılar nəticəsində Ubeyd mədəniyyətinə aid xeyli keramika məmulatı aşkar olunmuşdur. Tədqiqatlar göstərir ki, Bülövqayada məskunlaşan tayfalar köçmə maldarlıqla məşğul olmuşlar. Bülövqayada Ubeyd tipli xeyli boyalı keramikanın aşkar olunması Ubeyd tayfalarının e. ə. V minilliyin birinci yarısında şimala hərəkət edərək Naxçıvanda məskunlaşdığını göstərir. Ubeyd tayfalarının Naxçıvana hərəkəti, şübhəsiz ki, Cənubi Qafqazın zəngin xammal mənbələri, xüsusilə mis, obsidian yataqları və bol otlaqları ilə bağlı idi.*

**Açar sözlər:** *Cənubi Qafqaz, Yaxın Şərq, Naxçıvan, Ubeyd mədəniyyəti, Bülövqaya.*

**Giriş.** Bülövqaya yaşayış yeri Babək rayonunun Göynük kəndi yaxınlığında, dəniz səviyyəsindən 1430 m yüksəklikdə yerləşir. Yaşayış yerində aparılan tədqiqatlar zamanı Ubeyd mədəniyyəti üçün xarakterik olan keramika məmulatı aşkar olunmuşdur. Mesopotamiyanın Cənubi Qafqazla əlaqələrinə aid müxtəlif fikirlər irəli sürülsə də, bu əlaqələrin xarakteri kifayət qədər aydınlaşdırılmamışdır [1, s. 149; 3, s. 1-12]. Bu baxımdan 2024-cü ildə Bülövqaya yaşayış yerində aparılan arxeoloji qazıntılar Naxçıvanın Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrini öyrənmək baxımından əhəmiyyətlidir.

**Bülövqaya yaşayış yerində arxeoloji qazıntılar.** Bülövqaya yaşayış yerində arxeoloji tədqiqatlar 300 kv. m sahədə 2024-ci ilin iyun-iyul aylarında aparılmışdır (şəkil 1). Arxeoloji qazıntılar üç sahədə – Bülövqaya C, Bülövqaya D və Bülövqaya E sahələrində aparılmış, qazıntının gedişində C sahəsində aşkar olunan ev yerlərini (çadır yerlərini) qoruyub saxlamaq məqsədi ilə burada qazıntı dayandırılmış, D və E sahələrində isə qazıntı xam torpağadək davam etdirilmişdir. Tədqiqat zamanı C, D və E sahələrində az bir qismi yerdə qazılmış çadır tipli evlərin qalıqları, təsərrüfat quyuları, ocaqlar, keramika, obsidian və heyvan sümüklərindən ibarət zəngin arxeoloji material aşkar edilmişdir. C, D və E sahələrində aparılan qazıntılar zamanı qədim insanların standart formalı dördkünc planlı evlərdə yaşadığı müəyyənləşdirilmişdir.

Arxeoloji tədqiqatlar zamanı yaşayış yerinin bir təbəqəli olduğunu göstərmişdir. Lakin tədqiqatın gedişində rənginə görə bir-birindən fərqli iki layın olduğu müəyyən edilmişdir. Üstdəki birinci lay keramika, əmək alətləri, heyvan sümüyü, obsidian və digər daş alətlər tapılan boz rəngli torpaq laylarından ibarət idi. Bu təbəqədə ocaq qalıqları və kül yığınlarına rast gəlinməmişdir. Lakin keramika nümunələrinin üfüqi vəziyyətdə olması, əmək alətləri və torpağa basdırılmış küplər burada insanların müxtəlif dövrlərdə məskən saldığını göstərir.

**Tikinti qalıqları.** Birinci sahədəki (C) tədqiqatlar 10×10 m sahədə davam etdirildi. Tədqiqat zamanı az sayda keramika nümunələri, iki ədəd daş çəkic və dən daşlarının parçaları, həmçinin zərb alətləri aşkar olundu. Bu sahədə aparılan araşdırmalar dördkünc formalı evlərin qalıqları da aşkar olundu. Birinci ev qazıntı sahəsinin şimal-qərb küncündə yerləşirdi. Uzunluğu 5 m, eni 4,40 m idi. Döşəmə müəyyən müddət istifadə olunduğundan ətraf yerlərə nisbətən sərt və düz idi. Evin içərisindən çəhrayı rəngli keramika nümunələri, obsidian parçaları və heyvan sümükləri aşkar olundu. Tapıntılar, xüsusilə keramika nümunələri döşəmədə üfüqi vəziyyətdə yerləşmişdi. Bu evin cənub tərəfində ikinci evin qalıqları, daha doğrusu döşəməsi aşkar olundu. Onun uzunluğu 4,50 m, eni 4,40 m idi. Döşəməsi işlənməkdən sərtləşmişdi. Evin içərisindən çəhrayı keramika nümunələri,

obsidian parçaları və heyvan sümükləri aşkar olundu. Üçüncü evin qalıqları qazıntı sahəsinin şərq tərəfində aşkar olundu. Lakin bu evin bir qismi də D sahəsinə keçirdi. Evin uzunluğu 4,50 m, eni 4 m idi. Döşəmə sərtləşmiş və aşınmışdı, döşəmənin üzərində üfüqi vəziyyətdə keramika parçaları, dən daşı və həvəngin parçası aşkar olundu. Tədqiqat zamanı müəyyən olundu ki, qədim insanlar döşəməni düz saxlamaq üçün yastı sal daşlardan da istifadə etmişlər, daha doğrusu döşəmənin bəzi yerlərinə sal daşlar yerləşdirilmişdir. Ehtimal ki, bu daşlar ev əşyalarının, o cümlədən qabların qoyulması üçün istifadə olunmuşdur. Lakin qeyd etməliyik ki, bu sal daşlar əksər hallarda torpağın aşınması nəticəsində əyilmiş və maili vəziyyətdə durmuşdu. Bu evin D sahəsinə aid hissəsindən, döşəmənin üzərində üzü üstə çevrilmiş uzun qulplu kiçik həcmli gil qab aşkar olundu. Bu evin şərq tərəfində isə torpağa basdırılmış təsərrüfat küpünün qalıqları yerləşirdi. Onun yalnız torpağa basdırılmış dib hissəsi salamat qalmışdı. Küp saman qarışığı olan gildən hazırlanaraq qeyri-bərabər bişirilmişdi, divarları arasında bişməmiş boz təbəqə qalmışdı.




**Şəkil 1.** Bülövqaya yaşayış yerinin topoqrafik planı.

İkinci sahədə, D sahəsində aparılan tədqiqatlar zamanı üst təbəqədən az miqdarda keramika nümunələri aşkar olundu. Ümumiyyətlə, hər iki sahədə mədəni təbəqənin üzəri incə, heç bir material verməyən torpaq layı ilə örtülmüşdü. Lakin çox yerdə bu təbəqə mədəni təbəqə ilə qarışmışdı. Bu sahədə aparılan araşdırmalar zamanı üçüncü evdən şərq tərəfdə dördüncü evin qalıqları aşkar olundu. Onun uzunluğu 4,50, eni 4,40 m idi. Digər evlərdə olduğu kimi bu evin içərisində, döşəmənin üzərində üfüqi vəziyyətdə keramika parçaları, dən daşı və həvəngin parçası aşkar olundu. Döşəmə sərtləşmiş və aşınmışdı. Keramika məmulatının üzəri boz rəngli torpaqdan qaynaqlanan ərplə örtüldüyündən onların rəngini yalnız kəsiklərdə izləmək mümkün idi. Keramikalar başlıca olaraq çəhrayı rəngli, bəzən isə boyalı idi.

Beşinci evin qalıqları E sahəsində aşkar olundu. Onun uzunluğu 4,50, eni 4,40 m idi. Evin qərb tərəfində yerə basdırılmış qapı daşının tapılması bu hissədə qapı keçidinin olduğunu göstərirdi.

Bu evin şərq tərəfində torpağa basdırılmış iri həcmli küpün qalıqları aşkar olundu. Onun ağız hissəsi qırılaraq içəriyə tökülmüşdü. Küp təmizləndikdən sonra onun bütün parçaları toplanaraq götürüldü.

Yuxarıda qeyd etdiyimiz kimi, birinci layın altında yerləşən ikinci lay açıq rəngli və kül qarışığının olması ilə fərqlənirdi. Bu təbəqə ağ-sarı rəngli olmaqla boz rəngli kül layları ilə qarışmışdı. Lakin qeyd etməliyik ki, bu təbəqədə arxeoloji qalıqlar daha yaxşı saxlanmışdı. Evlərin və ocaqların yeri aydın şəkildə izlənirdi (şəkil 2). Bu layda aparılan arxeoloji qazıntılar göstərdi ki, evlər qurularkən ilk olaraq sahə düzləşdirilmişdir. Sahə düzləşdirilərkən bəzi evlərin şimal divarı bir qədər, təqribən 10-15 sm torpağın içərisinə doğru dərinləşdirilmişdir. Evlərin inşasında ağac dirəklərdən istifadə olunmuşdur. Bu laydakı evlərin yeri müəyyənləşdirilərkən ağac dirəklərin və torpaqda qazılmış sahələrin planından da istifadə olunmuşdur. Bu layda altı evin qalığı müəyyən edilmişdir. Araşdırma zamanı evlərin qrup halında yerləşdiyi, onlar arasındakı boş sahələrdən isə təsərrüfat sahəsi kimi istifadə olunduğu müəyyən olunmuşdur. Təsərrüfat sahələrində, ərzaq quyuları, ocaqlar və keramika sobasının qalıqları aşkar olunmuşdur. Qeyd etmək istəyirik ki, təsərrüfat sahələrinin ətrafında yerləşən yaşayış evlərinə Ovçulartəpə yaşayış yerində də rast gəlinmişdir [4, s. 53-100, photo 8].

Bu laydan aşkar olunan birinci ev C sahəsində aparılan qazıntılar zamanı sahənin qərb tərəfində aşkar olundu (şəkil 2, 1, I). Bu evin bir qismi qazılmamış sahənin altında qalmışdı. Onun içərisindən keramika nümunələri, heyvan sümüklərinin qalıqları və obsidian parçaları aşkar olundu. Evin uzunluğu 4,30 m, eni 2,20 m idi.

İkinci ev ondan şərqdə yerləşirdi. Onun uzunluğu 4,70 m, eni 3,70 m idi (şəkil 2, 1, II). Evin içərisindən keramika nümunələri, heyvan sümüklərinin qalıqları və obsidian parçaları aşkar olundu. Evin şimal tərəfində 1 m enində hündürlüyü 10 sm olan səki var idi. Ehtimal ki bu səki ev əşyalarının yığılması və yaxud yük yeri kimi istifadə olunmuşdur.

Üçüncü ev D sahəsində aparılan qazıntılar zamanı aşkar olundu (şəkil 2, 1, III). Bu evin uzunluğu 4, 70, eni 3, 70 m idi. Onun şimal tərəfində 1 m enində səki, bir dirək yeri, cənub tərəfində isə üç dirək yeri aşkar olundu. Evin içərisindən sadə və boyalı keramika məmulatı, heyvan sümükləri və obsidian parçaları aşkar olundu. Dirək yerlərinin quruluşu evin planını müəyyən etməyə imkan verirdi.

Dördüncü ev ondan şərq tərəfdə olub onunla eyni ölçüdə idi (şəkil 2, 1, IV). Evin uzunluğu 4,70, eni 3,70 m idi. Onun şimal tərəfində səki aşkar olunsa da ön tərəfində dirək yerləri aydın seçilmirdi. Bu laydakı evlərin döşəməsi ağ rəngli gillə suvandığında evlərin izləri asanlıqla seçilirdi.

Bu evlərin ön tərəfində bir dairəvi formalı çuxur və üç ocaq aşkar olundu. Birinci ocaq (4015) dağıntıya məruz qaldığından onun formasını tam müəyyənləşdirə bilmədik. Digər ocaqların biri dairəvi (4023), digəri isə oval (4024) formalı idi. Dairəvi ocağın (4023) diametri 90 sm, digərinin (4024) ölçüləri 1,10-0,75 m idi. Ocaqların ətrafında az miqdarda kül yığınlarına rast gəlinirdi. Onların ətrafından keramika, heyvan sümükləri və obsidian parçaları aşkar olundu. Şübhəsiz ki, yaşayış yerinin cənub sərhədində, dərənin kənarında yerləşən bu sahə təsərrüfat məqsədi ilə istifadə olunmuşdur.

Beşinci ev dördüncüdən şərqdə yerləşirdi (şəkil 2, 1, V). Onun uzunluğu 4,80 m, eni 3,70 m idi. Bu evin içərisindən heyvan sümükləri və obsidian parçaları aşkar olundu. Onun şimal tərəfində eni 1 m olan səki, cənub tərəfində isə dirək yerləri var idi. Bu evin şimal tərəfində keramika sobasının qalıqları (şəkil 2, 1, 6), ocaq yerləri (şəkil 5, 1, 7-8), şərq tərəfində isə bir-birində aralıda yerləşən iki dairəvi formalı diametri 60 sm olan çuxur aşkar olundu. Çuxurların içərisi heyvan sümükləri ilə dolmuşdu. Heyvan sümükləri arasında iribuynuzlu heyvanların sümükləri üstünlük təşkil edirdi. Ocaqların biri dairəvi formalı olub diametri 1, 10 m idi. Onun içərisi qara rəngli küllə dolmuşdu. Digər ocağın bir qismi sahədən kənara çıxmışdı. Onun diametri 60 sm idi. Bu ocağın da içərisi qara rəngli küllə dolmuşdu. Ocaqların ətrafından heyvan sümükləri, keramika və obsidian parçaları aşkar olunurdu. Araşdırmalar bu sahənin də təsərrüfat həyəti olduğunu, ərzaqların saxlanması və yemək bişirmək üçün istifadə olunduğunu göstərir. Keramika sobasının da bu sahədən aşkar olunması in-

sanların bu sahədə istehsal fəaliyyəti ilə məşğul olduqlarını təsdiq edir. Ümumiyyətlə, araşdırmalar göstərir ki, obsidian alətlər də ocaqların ətrafında hazırlanmışdır. Beləliklə, deyə bilərik ki, evlər qrup halında yerləşmiş, onların aralarındakı sahədən təsərrüfat məqsədi ilə istifadə olunmuşdur. Bu təsərrüfat sahəsinin şərq tərəfində altıncı evin qalığı aşkar olunmuşdur.

Altıncı ev E sahəsinin şərq kənarında yerləşdiyindən onun bir qismi qazıntı sahəsindən kənarda qalmışdı (şəkil 2, 1, VI). Evin planı döşəməyə çəkilən ağ rəngli suvağa və ağac dəlikləri əsasında aydın şəkildə izlənirdi. Bu evin sahədə qalan hissəsinin uzunluğu 4,70 m, eni isə 3,70 m idi. Evin içərisindən keramika, heyvan sümükləri və obsidian parçaları aşkar olunurdu.

Bu laydakı evlərin döşəməsindən dən daşı, zərb alətləri həmçinin sümük alətlər aşkar olunmuşdur.




**Şəkil 2.** İkinci tikinti qatının planı və kəsiklər: 1 – ikinci tikinti qatının planı; 2-3 – kəsiklər; *a* – ocaq və kül qalıntıları; *б* – evlər; *c* – çuxurlar; *ç* – birinci tikinti qatı; *д* – ikinci tikinti qatı.

Arxeoloji araşdırmalar göstərir ki, Bülövqaya yaşayış yeri üçün dördkünc planlı yüngül konstruksiyalı evlər xarakterik olmuşdur. Arxeoloji qazıntılar zamanı birinci layda beş, ikinci layda isə altı evin qalıqları aşkar olunmuşdu. Birinci layda isə döşəmənin düzəldilməsi üçün yastı sal daşlardan istifadə edilmişdir. Təsərrüfat küpləri evlərin kənarında aşkar olunmuşdur. Tədqiqatlara əsasən demək olar ki, alt laydakı evlərin içərisində torpaqda qazılmış səkilər düzəldilmiş, evlər dirəklər vasitəsi ilə qurularaq yüngül konstruksiya ilə tamamlanmışdır. Ocaqlar başlıca olaraq evlərdən kənarda yerləşən təsərrüfat sahələrində aşkar olunmuşdur. Bu isə insanların burada yay aylarında məskən saldığını göstərir. Qədim sakinlər evlərin döşəməsini ağ rəngli suvaqla suvamışdır. Dairəvi formalı ocaqların və təsərrüfat çuxurlarının da döşəməsinin suvanması hallarına rast gəlinmişdir. Dən daşları evlərin içərisindən tapılsa da, təsərrüfat sahələrində də dən daşları və əmək alətləri aşkar olunmuşdur. Ocaqların içərisində obsidian qəlpələrinin aşkar olunması göstərir ki, qədim sakinlər obsidian alətləri həm də ocağın ətrafında, təsərrüfat sahələrində hazırlamış, ərzaq məhsullarını da

burada emal etmişlər. Yaşayış yerində müxtəlif maddi mədəniyyət qalıqlarının tapılmasına baxmayaraq heyvan sümükləri və keramika məmulatı olduqca çoxdur. Ehtimal ki, keramika məmulatının bir qismi yaşayış yerində hazırlanmışdır. Arxitektura qalıqları və qazıntı zamanı izlənən tapıntılar yaşayış yerinin birtəbəqəli olduğunu və bu mədəniyyətin iki mərhələdən keçdiyini göstərir. Üst layda ocaq qalıqlarının olmaması, ehtimal ki, yaşayış yerində insanların daha az yaşaması ilə bağlı olmuşdur. Belə hesab edirik ki, bu köçmə maldarlığın intensivləşməsi ilə bağlı olmuşdur.

**Əmək alətləri (şəkil 3).** Bülövqayadan aşkar olunan əmək alətlərinin bir qismi dən daşlarından ibarətdir. Bu tip əmək alətləri başlıca olaraq boz rəngli bazalt daşından hazırlanmışdır (şəkil 3, 1). Onlar üst və alt dən daşlarından ibarətdir. Dən daşları başlıca olaraq evlərin içərisindən, ocaqların ətrafından aşkar olunmuşdur. Araşdırmalar Bülövqayadakı dən daşları trassoloji analiz edilmədiyindən onların hansı məqsəd üçün istifadə olunduğunu demək çətindir. Lakin Naxçıvanda aparılan araşdırmalar bu tip alətlərin olduqca müxtəlif məqsədlər üçün istifadə olunduğunu təsdiq edir. Bu alətlər dənlə bərabər həmçinin duz üyüdülməsində və metalların zənginləşdirilməsində də istifadə olunmuşdur.




**Şəkil 3.** Əmək alətləri.

2024-cü ildə Bülövqayada aparılan qazıntılar zamanı cilayıcı alətlər (şəkil 6, 2, 3), zərb alətləri (şəkil 6, 4, 5), iki daş çəkic (şəkil 6, 6) və bu tip alətə aid bir parça da aşkar olunmuşdur. Onların baş tərəfində sap keçirmək üçün dəlik açılmışdır.

Bülövqayada aparılan tədqiqatlar zamanı xeyli miqdarda sümük alət, başlıca olaraq isə biz və iynələr aşkar olunmuşdur (şəkil 6, 7-14). Onların bəzisi işlənmə zamanı aşınmış, bəziləri isə sınmışdır.

**Obsidian və çaxmaqdaşı alətlər.** Bülövqayadan aşkar olunan əmək alətlərinin bir qismi obsidian və çaxmaqdaşından hazırlanmışdır (şəkil 3, 15-17, 19-20). Məlum olduğu kimi, Cənubi Qafqazda çox sayda xammal yataqları, o cümlədən obsidian və mis yataqları vardır. Urmiya hövzəsində obsidian olmadığından bu bölgədə yerləşən qəbilələr Cənubi Qafqazın obsidian yataqlarından istifadə etmişlər. Obsidian qədim dünyanın əkinçilik və heyvandarlıqla məşğul olan qəbilələri üçün olduqca önəmli olduğundan Cənubi Qafqaz ilə Urmiya hövzəsi arasındakı əlaqələrin qurulmasına imkan vermişdir. Sirabçay vadisinin Son Eneolit abidələrində olduğu kimi, Bülövqayada da obsidian alətlər çox azdır. Lakin çox sayda obsidian qəlpələri aşkar olunmuşdur. Araşdırmalar göstərir ki, Naxçıvanın Neolit və Eneolit dövrü yaşayış yerlərində başlıca olaraq Göyçə hövzəsi və Zəngəzur obsidianından istifadə olunmuşdur. Əgər Ovçulartəpədə Göyçə obsidianı üstünlük təşkil edirsə, Sirabçay vadisinin Son Eneolit abidələrində Zəngəzur obsidianı üstünlük təşkil edir. Bülövqaya obsidianlarının yalnızca bir qismi analiz edilmişdir. Analizlər Bülövqayada başlıca olaraq Zəngəzur, qismən isə Meydandağ obsidianından istifadə olunduğunu göstərir. Araşdırmalar göstərir ki, obsidian yataqlarından istifadə yaşayış yerlərinin coğrafi mövqeyi ilə bağlı olmuşdur. Ehtimal ki, Bülövqayada Zəngəzur obsidianı üstünlük təşkil etməsi də bununla bağlıdır.

Çaxmaqdaşından hazırlanan əmək alətləri azdır (şəkil 3, 18). Onlar uzunsov formalı oraq dişlərindən ibarətdir. Onların bəzisi piramidal, bəzisi isə prizmatik nukleuslardan qoparılaraq hazırlanmışdır. Bəzi lövhələr hər iki tərəfdən yaxşı retuşlanmış, bəziləri isə retuşlanmamışdır. Şübhəsiz ki, bu tip əmək alətləri oraq dişləri kimi, yaxud da digər alətlərin qurama hissəsi kimi istifadə olunmuşdur.

**Keramika məmulatı**. Bülövqayadan aşkar olunan tapıntıların əksəriyyəti keramika məmulatından ibarətdir. Keramika məmulatını üç qrupa ayırmaq olar. **Birinci qrupa** daxil olan keramika məmulatı üstünlük təşkil edir (şəkil 4, 1-5). Keramika məmulatının 69,6%-ini çəhrayı rəngli sadə keramika təşkil edir. Bu qrupdakı keramika saman, bəzən həm saman, həm də qum qarışığı olan gildən, bəzən isə qarışığı olmayan gildən hazırlanaraq çəhrayı rəngin müxtəlif tonlarında bişirilmişdir. Bu qrupa kasa, küpə, çölmək tipli qablar aiddir. Onlar arasında iri təsərrüfat küplərinin də parçaları vardır. Bu qrupda az da olsa nazik divarlı, kiçik həcmli qabarıq gövdəli kasalar vardır. Ehtimal ki bu qrupdakı qablar daha çox ərzaq məhsullarının saxlanılması və süfrə qabları kimi istifadə olunmuşdur. Onların bəzilərinin səthində qaba saman qarışığı aydın şəkildə izlənilir. Qabların az bir qismi qabartma naxışla, bəziləri isə qabarıq məməciklərlə naxışlanmış, bəzilərinin üzərində üfüqi barmaq izləri qalmışdır. Keramika nümunələrinin bəzisi relyef kəmər üzərindən çəkilən çərtmələrlə naxışlanmışdır. Qulplar olduqca azdır. Qulplar buynuzşəkilli olub qabların gövdəsindən yuxarıya doğru yüksəlir. Bu tip qulplar Neolit və Eneolit mədəniyyəti üçün xarakterikdir. Son Eneolit dövründə belə qablara olduqca az rast gəlinir. Keramika məmulatı nazik gil təbəqələri bir-birinin üzərinə yapışdırmaqla hazırlanmışdır.

Bəzi keramika məmulatının üzəri daraqvarı alətlə düzəldilmişdir. Bu tip keramika da azdır və keramika məmulatının yalnızca 1%-ni təşkil edir.

Bəzi qabların ağız kənarı çərtmələrlə naxışlanmışdır. Həsir izi yalnızca iki keramika parçasının üzərində rast gəlinmişdir. Bu tip keramika məmulatı adətən yaxşı, bəzən isə qeyri-bərabər bişirilmişdir. Lakin onların bəzisinin divarları arasında qara, yaxud boz rəngli təbəqəyə rast gəlinir ki, bu da onların lazımınca oksigen almadığını və yaxşı bişmədiyini göstərir. Qabların oturacaqları yastı, xaricə doğru çıxıntılı və yuvarlaq şəkildədir.

Üst laydan aşkar olunan keramika məmulatının səthi hər iki üzdə qalın ərplə örtülmüşdür ki, bu da keramikanın rəngini və xüsusiyyətlərini izləməyə imkan vermir. Lakin qablar parçalar halında aşkar olunduğundan kəsikdə onların rəngini və tərkibini izləmək mümkündür.

**İkinci qrupa** daxil olan keramika başlıca olaraq qum, bəzən isə saman və qum qarışığından hazırlanaraq qəhvəyi, bəzən isə tünd qırmızı rəngdə qeyri-bərabər bişirilmişdir. Bu qrupdakılar keramika məmulatının 2%-ni təşkil edir (şəkil 4, 6-8). Qabların divarları arasında yaxşı bişməmiş təbəqə qalmışdır. Bəzi keramika nümunələrinin üzəri daraqvarı alətlə düzəldilmişdir. Bu qrupa daxil

olan qablar başlıca olaraq qazan tipli qablardan, küpələrdən ibarətdir. Bəzi qabların gövdəsinin ortasında, buynuzşəkilli qulpları vardır. Bu tip keramika məmulatının bəzilərinin ağız hissəsində, bəzisinin isə gövdəsində güclü hislənməyə rast gəlinir, bəzilərinin isə gövdəsində aşınma izləri var-dır. Tədqiqatlar zamanı bu tip qabların ocaqların içərisindən aşkar olunması onların mətbəx qabları kimi istifadə olunduğunu göstərir.

İndiyədək bu tip keramika məmulatının yalnızca Son Eneolit üçün və Sioni mədəniyyəti üçün xarakterik olduğu söylənsə də araşdırmalar bu tip keramikanın Sioni mədəniyyətinin formalaşmasından xeyli əvvəl erkən və Orta Eneolit dövründə mövcud olduğunu göstərir. Naxçıvan abidələrindən aşkar olunan tapıntılar bu tip keramika məmulatının təsərrüfatda müxtəlif məqsədlərlə istifadə olunduğunu deməyə imkan verir.

**Üçüncü qrup** keramika məmulatı qara rənglidir. Onların bəzisi saman, bəzisi isə qum qarışığı olan gildən hazırlanmışdır (şəkil 4, 8-10).

Bülövqayadan aşkar olunan **dördüncü qrup** keramika boyalı keramikadır (şəkil 4, 11-16). Boyalı keramika forma verən keramika məmulatının 27, 4%-ni təşkil edir. İndiyədək Cənubi Qafqazın heç bir abidəsində bu qədər boyalı keramikaya rast gəlinməmişdir. Onların gilinə saman, bəzən narın yaxud iri qum qatılmış, yaxşı bişirilmişdir. Bununla belə, yaxşı bişməyən parçalar da vardır. Boyalı keramikanı boyanma texnikasına görə iki qrupa bölmək olar. Birinci qrupdakılar əksəriyyət təşkil edir. Bu qrupdakı keramika qabları sarı anqobla örtülmüş səthinə, bəzən isə bir başa qabların səthinə qəhvəyi rənglə çəkilmişdir. İkinci qrupdakılar isə qırmızı anqob üzərindən qəhvəyi, yaxud qara rənglə çəkilmişdir. Birinci qrup keramika Ubeyd mədəniyyəti, ikinci qrup keramika isə Urmiya hövzəsinin Eneolit mədəniyyəti üçün xarakterikdir. Boyalı keramikanın naxış motivlərinin, demək olar ki, hamısı Ubeyd mədəniyyətindən məlumdur. Bəzi naxış motivləri Ubeyddən əvvəlki dövrlərdə də istifadə olunmuşdur. Naxış motivləri olduqca müxtəlifdir. Bunlar arasında dalğalı xətlər, düz xətlər yuvarlaq dairələr, bir-biri üzərində yerləşdirilmiş üçbucaqlar vardır. Lakin bir-biri üzərində yerləşdirilmiş üçbucaqşəkilli naxışlar və sünbülşəkilli naxışlar üstünlük təşkil edir. Bu keramika məmulatının lokal istehsalı ilə bağlı ola bilər. Ehtimal ki, bu naxışların müəyyən simvolik mənası da olmuş, sünbülvarı naxışlar bitkiləri, üçbucaqlar isə dağları simvolizə etmişdir.



**Şəkil 4.** Keramika məmulatı.

Bülövqaya yaşayış yerində aşkar olunan keramika məmulatının əksəriyyətini saman qarışıq gildən hazırlanmış çəhrayı rəngli keramika təşkil edir. Ümumiyyətlə, araşdırmalar saman qarışıq keramikanın Naxçıvanda Neolit dövründən mövcud olduğunu göstərir. Buna görə də bəzi tədqiqatçıların Leylatəpə mədəniyyətinə aid saman qarışıq keramikanın Mesopotamiyadan gətirildiyini irəli sürməsi, guya ki, bu tip keramikanın Cənubi Qafqazda yalnızca Son Eneolit dövründə yayılmasını irəli sürməsi olduqca qəribədir [2, s. 128-131]. Araşdırmalar göstərir ki, Azərbaycanda Neolit dövründən istehsal edilən saman qarışıq keramika, Naxçıvanda isə Eneolit dövrünün müxtəlif mərhələlərində istifadə olunmuşdur.

**Nəticə**. Bülövqaya yaşayış yerinin tədqiqi e.ə. V minillikdə Mesopotamiya ilə Naxçıvan arasında iqtisadi-mədəni əlaqələrin genişləndiyini, Ubeyd tayfalarının şimala doğru hərəkət edərək Naxçıvanda məskən saldığını göstərir. Tədqiqatlar Ubeyd tayfalarının şimala hərəkəti sırasında yerli mədəniyyətlərlə Ubeyd mədəniyyəti arasında qarşılıqlı əlaqələr yarandığını deməyə imkan verir. Yaşayış yerinin tədqiqi Bülövqayada məskən salan tayfaların köçmə maldarlıqla məşğul olduğunu deməyə imkan verir. Ubeyd tayfalarının Naxçıvana doğru hərəkəti, şübhəsiz ki, Cənubi Qafqazın zəngin xammal yataqları, xüsusilə obsidian və mis yataqları, həmçinin bol otlaqları ilə bağlı olmuşdur.

## ƏDƏBİYYAT

1. Бахшалиев В.Б. Археологические раскопки на поселении Кюльтепе I // Российская археология, 2022, № 1, с. 139-152.
2. Мунчаев Р. М., Амиров Ш. Н. Лейлатепинская культура и Кавказ / Кавказ как связующее звено между Восточной Европой и Передним Востоком: диалог культур, культура диалога (к 140-летию Александра А.Миллера). Санкт-Петербург, 2015, с. 128-131.
3. Cucchi T., Kovács Z., Berthon R., Orth A., Bonhomme F., Evin A., Siahsarvie R., Darvish J., Bakhshaliyev V., Marro C. On the trail of Neolithic mice and men towards Transcaucasia: zooarchaeological clues from Nakhchivan (Azerbaijan) // Biological Journal of the Linnean Society, 2013, pp. 1-12.
4. Marro C., Bakhshaliyev V., Ashurov S. Excavations at Ovçular Tepesi (Nakhchivan, Azerbaijan). Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, 2011, v. 19, pp. 53-100.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: velibahshaliyev@mail.ru***

**Veli Bakhshaliyev**

## ARCHEOLOGICAL EXCAVATIONS AT THE SETTLEMENT OF BÜLÖVKAYA

During excavations in 2024, numerous ceramic items belonging to the Ubaid culture were discovered from the Bülövkaya settlement. The study of the settlement allows us to say that the tribes that settled in Bülövkaya were engaged in nomadic cattle breeding. The discovery of a large quantity of painted pottery of the Ubaid type in Bülövkaya suggests that the Ubaid tribes moved north and settled in Nakhchivan in the first half of the 5th millennium. The movement of the Ubaid tribes towards Nakhchivan was undoubtedly associated with the rich deposits of raw materials of the South Caucasus, especially deposits of obsidian and copper, as well as abundant pastures.

**Keywords:** *South Caucasus, Middle East, Nakhchivan, Ubaid culture, Bülövkaya.*

**Вели Бахшалиев**

## АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ В ПОСЕЛЕНИИ БЮЛОВГАЯ

В ходе раскопок 2024 года в поселении Бюловгая обнаружено большое число керамических изделий, относящихся к Убейдской культуре. Изучение поселения позволяет сказать, что племена, поселившиеся в Бюловгая, занимались кочевым скотоводством. Обнаружение большого количества расписной керамики убейдского типа в Бюловгая позволяет предположить, что племена Убейд двинулись на север и поселились в Нахчыване в первой половине V тысячелетия. Движение убейдских племен в сторону Нахчывана, несомненно, было связано с богатыми месторождениями сырья Южного Кавказа, особенно месторождениями обсидиана и меди, а также обильными пастбищами.

**Ключевые слова:** *Южный Кавказ, Ближний Восток, Нахчыван, Убейдская культура, Бюловгая.*

**Daxilolma tarixi: İlkin variant 22.01.2025**
**Son variant 18.02.2025**